**Zəfər.** Qeyrətli oğulların igidliyi // Respublika. - 2025. - 18 iyul. - **№ 146**. - S. 11.

1999 -cu il avqustun 10-da Cəlilabad rayonunun Buravar kəndində anadan olmuş Seymur Adil oğlu Abbasov xalqımızın tarixinə qeyrət, hünər, şərəf səhifəsi kimi yazılan 44 günlük haqq savaşımızda şəhidlik zirvəsinə ucalıb. 30 il düşmənə əsir düşən torpağı qanı bahasına Vətən edən, ömrünü gələcək nəsillərin xoşbəxtliyinə fəda edən Seymur qəhrəmanlıq simvoluna dönərək ürəklərə köçüb. İndi Azərbaycan xalqı Vətən sevdalısının adını fəxrlə çəkir.

Seymur Abbasov orta məktəbi bitirəndə vətənpərvərliyi ilə el-obada yaxşı tanınıb. Hamı onun Vətəninə, xalqına layiqli övlad olmasına ürəkdən inanıb. 2017-ci ildə ordu sıralarına həvəslə yola düşüb.

Cəlilabad elinin mərd, cəsur oğlu Tərtər rayonunda əlinə silah alıb canından artıq sevdiyi Azərbaycanın keşiyində durub. Xidmət zamanı nizam-intizamı, təlimlərdə döyüş fəallığı əsgərlərə nümunə göstərilib. Əsl vətəndaş, mənəvi cəhətdən kamil, Vətəni həqiqi məhəbbətlə sevən əsgər olduğunu əməlləri ilə sübut edib. Hansı tapşırığa gedibsə, bacarığı sayəsində yalnız uğur qazanıb. Vətən, millət yolunda hər an canından keçməyə hazır olub. Məhz buna görə hərbi hissədə zabitlərin, əsgərlərin sevimlisinə çevrilib, dəfələrlə təşəkkürnaməyə layiq görülüb. Vətəni qanımızla, canımızla alınmaz qayaya döndərmək bizim müqəddəs borcumuzdur.

Köksündə əsl qəhrəman ürəyi döyünən Seymur ilk dəfə Cəbrayılda yağıya od vurub. Burada gedən ölüm-dirim savaşında çoxlu sayda erməni yaraqlısını məhv edib. Hər döyüşdən zəfərlə çıxan qəhrəman Vətən sevdalısı Cəbrayılın, Füzulinin azadlığı uğrunda böyük şücaət göstərib. Sinəsini Vətən üçün sipər edən Seymur oktyabrın 29-da Qubadlı döyüşləri zamanı şəhadətə yüksəlib.

Əbədiyyət dünyasına qovuşan 21 yaşlı Seymur Abbasov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilib.